

# Dönüş yaradılır

*Son illərədək İsmayıllıda mədəniyyətin bütün sahələri kimi musiqi məktəbində də işlər ürəkaçan deyildi. Bütün bu çatışmazlıqlara görə daim kollektivə irad tutulur, işdə dönüş yaratmaq üçün əzmlə çalışmaq, hər şeyə nöqsanların ləğvindən başlamaq tövsiyə olunurdu. Buna baxmayaraq vəziyyət düzəlmirdi ki, düzəlmirdi.*

Nəhayət , rayonda kadr dəyişikliyi aparıldı. Rayon mədəniyyət şöbəsinin müdiri vəzifəsinə təyinat alan Eldar Səbzəliyev qısa müddət ərzində işdə dönüş yaratmağa müvəffəq oldu. Uşaq incəsənət məktəbinə diqqəti artırmaq da yaddan çıxmadı. Məktəbin direktoru dəyişdirildi. Neçə illərdən bəri burada çalışan Ceyran Məmmədova işgüzarlığı nəzərə alınaraq rəhbər vəzifəyə irəli çəkildi. Məktəbin bütün problemləri Ceyran xanıma bəlli olduğundan direktor kimi nədən başlamağı düşünmək çox vaxt aparmadı.



İndi C.Məmmədova ilə onun iş otağında əyləşmişik. Kollektivin bugünkü durumundan, rayon və şöbə rəhbərliyinin qayğı və köməyindən, məktəbin qarşısında duran vəzifələrdən söhbət açır:

-Məktəbimiz böyük bəstəkar Qara Qarayevin təşəbbüsü ilə musiqi məktəbi kimi 1968-ci ildə yaradılıb. 1981-ci ildən incəsənət məktəbi tək fəaliyyət göstərir. 1995-ci ildən şəhid Fazil Əzimovun adını daşıyır...

Söhbət zamanı öyrənirik ki, məktəbdə 401 şagird oxuyur. Onların təlim-tərbiyəsi ilə 55 nəfər müəllim məşğul olur. Tədris 7 ixtisas-fortepiano, tar, qarmon, kamança, xanəndəlik, xoreoqrafiya və təsviri incəsənət sahələri üzrə aparılır. Bu nəcib işdə qabaqcıl müəllimlərdən Əvəz Abbasova (tar), Xuraman Aslanovaya (fortepiano), Sülhiyyə Nağıyevaya (kamança), İlham Əliyevə (qarmon), Əlixan Sultanova (təsviri incəsənət), Qalib Salmanova (xanındəlik) və başqalarına arxalanılır.

Ceyran Məmmədova Gəncədə anadan olub. Şəkidə musiqi texnikumunu bitirib. Məktəbdə neçə illər musiqi nəzəriyyəsi ixtisasından dərs deyib. Ailə quraraq İsmayıllıda qalıb.

-Hər şeyə nizam-intizamın yüksəldilməsindən başladıq, - deyə Ceyran xanım söhbətinə davam edir. Təmir – bərpa işlərinə, səliqə-səhmana xüsusi fikir verdik. Daxili imkanlar hesabına məktəbin fasad və daxili hissəsi təmir olundu. Şagird və müəllim kollektivlərinin ayrı-ayrı ansamblları, eləcə də xor kollektivi yaradıldı. Sərgilər təşkil etdik. Uşaqlarımız muğam müsabəqələrindən diplom və laureat adı ilə qayıtdılar.

***Bunu da fərəh hissilə qeyd etmək istəyirəm ki, müəllimlərimizin 80 faizdən çoxu öz yetirmələrimizdir.***

*Səbinə MƏMMƏDOVA*